# AZƏRTAC Pakistanın aparıcı media qurumları ilə əməkdaşlığı genişləndirəcək

AZƏRTAC Pakistanın aparıcı media qurumları ilə əməkdaşlığı genişləndirmək niyyətindədir.

Bununla bağlı məsələ AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanovun Azərbaycanda səfərdə olan Pakistan KİV-in rəhbərləri ilə görüşündə müzakirə olunub.

Qeyd edilib ki, dost və qardaş ölkə olan Azərbaycan və Pakistan bütün səviyyələrdə daim bir-birini dəstəkləyir. "Sizin Zəfər günü ərəfəsində Azərbaycana səfəriniz çox simvolikdir. Pakistan Vətən müharibəsi dövründə Azərbaycana çox böyük dəstək verib. Ordumuz Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad etdi və 30 illik işğala son qoydu. Bu illər ərzində Ermənistan həmin ərazilərdə məscidləri, evləri, bütün infrastrukturu dağıdaraq məhv edib. Siz işğaldan azad edilmiş ərazilərə səfəriniz zamanı bütün bunları öz gözlərinizlə görəcəksiniz. Həmçinin bu ərazilərdə başlanmış genişmiqyaslı quruculuq işlərinin şahidi olacaqsınız", - deyə İdarə Heyətinin sədri bildirib.

Vurğulanıb ki, müharibə günlərində Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında Pakistan mediası böyük rol oynayıb. AZƏRTAC Pakistanın bir sıra media qurumları ilə mütəmadi informasiya mübadiləsi aparır, National Herald Tribune, DND, PPİ və APP kimi informasiya agentlikləri ilə sıx əlaqələrə malikdir.

Dispatch News Desk (DND) xəbər agentliyinin baş redaktoru Ağa İqrar Harun bildirib ki, təmsil etdiyi media qurumu artıq üç ildir AZƏRTAC ilə əməkdaşlıq edir,



Azərbaycanda və Pakistanda baş verən hadisələr barədə qarşılıqlı olaraq xəbərlər yayımlanır. "AZƏRTAC ilə əməkdaşlıqdan məmnunuq. Onun xəbərləri operativ və dəqiqdir. Əminəm ki, əlaqələrimiz daha da inkişaf edəcək", - deyə baş redaktor qeyd edib.

National Herald Tribune nəşrinin baş redaktoru Riaz Ahmad Malik deyib ki, uzun illərdir AZƏRTAC ilə xəbər mübadiləsi sahəsində əməkdaşlıq davam edir. O, bundan sonra da əlaqələrin möhkəmləndirilməsi istiqamətində birgə addımlar atmağa hazır olduqlarını bildirib.

Görüşdə qonaqlara AZƏRTAC haqqında məlumat verilib, agentliyin Dünya Xəbər Agentlikləri Konqresində (NAWC), Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatında (OANA), İslam Əməkdaşlıq Təşkilatının Milli Xəbər Agentlikləri Birliyində (UNA) fəaliyyəti barədə danışılıb. Söhbət zamanı AZƏRTAC-ın Pakistanın media qurumları ilə əlaqələrinin möhkəmləndirilməsi üçün ikitərəfli əməkdaşlıq müqavilələrinin imzalanması ilə bağlı fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Pakistanın İslamabad Post, Express, National-Herald Tribune, Pakistan Observer nəşrlərinin, Dispatch News Desk (DND) və Global News Pakistan xəbər agentliklərinin, Pakistan Dövlət Televiziyası və HUM News televiziyasının rəhbərləri və nümayəndələri, həmçinin sosial media fəallarının Azərbaycana səfəri başlayıb. Səfər müddətində onlar Bakıda bir sıra görüşlər keçirəcək və işğaldan azad olunmuş ərazilərə gedəcəklər.

Azərbaycan.- 2021.-5 noyabr.- S.9.